*Mahmud Kaşğarlı* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 3 Sayı: 1 / 140-146 ISSN : 3005-3137
*Mahmud Kashgarli* International Scientific Journal. / Volume: 3 Issue: 1 / 140-146 e-ISSN: 3005-4982

# AZƏRBAYCANDA NOVRUZ BAYRAMI, ASTRONOMİK BAHAR, YAZ VƏ YENİ İL KEÇİRİLMƏSİNİN TARİXİ KÖKLƏRİ, MƏRASİMLƏRİ VƏ QANUNLARI

DOI: https://doi.org/10.36719/3005-3137/1/140-146

**Kübra Əliyeva**
**Sənətşünaslıq elmləri doktoru, professor**
**Əməkdar incəsənət xadimi**
**Bakı, Azərbaycan**
**aliyeva_kubra@gmail.com**
**Orcid: 0000-0001-8379-1925**

## Xülasə

Azərbaycan, dünyanın qədim ölkələrindən biri olaraq həm zəngin maddi resursları, həm də milli mədəniyyəti ilə tanınır. Dövlətçilik tarixində Azərbaycan bir çox fərqli dinlərin yaranış mərkəzi olub. Bu dinlərə Zərdüştlük, Tanrıçılıq, Xristianlıq və İslam daxildir. Astrologiya və astronomiya Azərbaycanda qədim dövrlərdə geniş inkişaf etmişdir. Qədim türk tayfaları göy cisimlərini müşahidə edərək ilk astronomik bilikləri əldə etmişlər. Zərdüştlük Azərbaycanda, xüsusilə qədim Manna, Midiya, və Atropatena ərazilərində yaranmışdır. Zərdüştlük dini Günəşə və digər səyyarələrə ibadət etməyə əsaslanırdı. Strabon və digər tarixçilər Azərbaycanda bu ibadətgahların çoxluğundan bəhs etmişlər. Bu ibadətgahların xüsusi günlərdə ziyarət edilməsi və müəyyən rənglərə sahib olması, göy cisimlərinin hərəkətinə əsaslanırdı. Zərdüşt dövründə göydəki ulduzlara sitayiş edilməsi adi hal idi və bu həmin dövrün mədəniyyətinin ayrılmaz bir hissəsinə çevrilmişdi. Zərdüştlük dininin əsas məqsədi, insanları pisliyə qarşı mübarizə aparmağa və haqlı həyat sürməyə təşviq etmək idi. Zərdüştün əsas fikirləri "Haqq fikir, haqq söz və haqq əməl" üzərində cəmlənirdi. Zərdüşt həmçinin öz təlimində insanların bir-birinə hörmət etməsini və əkinçiliyi inkişaf etdirmələrini tövsiyə edirdi. Onun təlimləri sonradan "Avesta" adlı müqəddəs kitabda toplanmışdır. Novruz bayramı Zərdüştlük dininin əsas bayramlarından biridir. Bu bayramın ən qədim formaları qədim Manna və Midiya dövrlərinə aiddir. Novruz bayramı təbiətin oyanışı və yeni ilin başlanğıcı kimi qəbul olunur. Bu bayramda təmizlik, ailəvi birliyə və bolluğa vurğu edilir. Zərdüştlük dövründə müxtəlif bayramlar mövcud idi ki, bunlar arasında qadınlar bayramı, taxıl yığılma və mal-qaranın dağdan enməsi bayramı da var idi. Novruz bayramının mərasimləri və adətləri bu günə qədər müxtəlif formalarla davam edir. Zərdüştçülük və Novruz bayramı Azərbaycanın mədəni və dini irsinin mühüm tərkib hissəsidir. Bu bayramın qeyd edilməsi və onun adət-ənənələrinin qorunması, Azərbaycanın çox qədim tarix və mədəniyyətindəki əhəmiyyətini göstərir.

***Açar sözlər:*** *Bahar, Novruz, Manna, skif, hun, oğuz, Zərdüşt, Günəş, Ay*

# NEW YEAR IN AZERBAIJAN, ASTRONOMIK SPRING, HISTORICAL ROOTS OF SPRING HOLIDAY NOVRUZ, CEREMONIES AND RULES

**Kubra Aliyeva**
**Doctor of Arts, professor**
**Honored art worker**
**Baku, Azerbaijan**
**aliyeva_kubra@gmail.com**
**Orcid: 0000-0001-8379-1925**

## Summary

Azerbaijan, is a country rich in history and culture, it is also known forits significant contributions to ancient religions such as Zoroastrianism, Christianity, and Islam. Astronomy and astrology were highly developed in Azerbaijan. Turkic tribes observed heavenly bodies and planets and got initial astronomic knowledge in such way. Ancient tribes such as the Manneans and Scythians practiced astrology and astronomy, observing celestial bodies to understand the worldaround them. Zorostrianism engendered in Azerbaijan, in ancient states Mannah, Midia, Atropatene. The religion of Zoroastrianism was based on cult of Sun and other planets. Strabo and other historians informed, that in territory of ancient Azerbaijan many

temples were palced. The worship in those temples took place definite days and were of different colors. So, it was based on motion of planets. That time it was normal to worship the sky stars and it became integral part of culture. The main aim Zoroastrianism was to call humans to fight aganst negative actions and to live justful life. The main idea of Zoroastr were based on following doctrine - "Righ thinking, right word and right action". In his religion Zoroastr called people to respect each others and to develop agriculture. Later, all these ideas were collected in book "Avesta". Novruz bayram is one of main holidays (high days) of Zoroastrianism religion. The most ancient forrms of this holiday is rooted in ancient Mannah and Atropatena. Novruz bayram is considered as awakening of nature and beginning of new year. In this holiday the main principle are meant - purity, family unit and abundance. In Zoroastrianism period different holidays existed. Among them the Woman's day, harvesting and coming of live-stock from mountains should be mentioned particularly. So, the ceremonies and rituals of Novruz bayram are continued nowadays in different forms. Zoroastrianism and Novruz bayram is an important part of Azerbaijani cultural and religious heritage. The celebration of this holiday and preservation of its traditions demonstrates its importance in history and culture of Azerbaijan.

***Keywords:*** *spring, Novruz, Mannah, skythian, hun, Zoroastr, the Sun, the Moon*

## ИСТОРИЧЕСКИЕ КОРНИ, ОБЫЧАИ И ЗАКОНЫ ПРАЗДНОВАНИЯ НОВРУЗ, АСТРОНОМИЧЕСКОЙ ВЕСНЫ И НОВОГО ГОДА В АЗЕРБАЙДЖАНЕ

**Кубра Алиева**
**Доктор искусствоведения, профессор**
**Заслуженный деятель искусств**
**Баку, Азербайджан**
**aliyeva_kubra@gmail.com**
**Orcid: 0000-0001-8379-1925**

### Резюме

Азербайджан – страна с богатой историей и культурой, которая внесла значительный вклад в развитие древних религий, таких как зороастризм, христианство и ислам. Древние племена, такие как манны и скифы, занимались астрологией и астрономией, наблюдая за небесными телами для понимания окружающего мира. Зороастризм, одна из древнейших мировых религий, была основана пророком Зороастром (Зардуштом) в древней Манне и оказала влияние на многие соседние империи, включая Ахеменидов. Зороастризм подчеркивал поклонение природным элементам, особенно Солнцу и другим небесным телам. Учения религии акцентировали внимание на истине, праведности и уважении к природе. Зороастрийцы праздновали различные ритуалы, включая празднование Нового года, который теперь называется Новруз. Новруз символизирует приход весны и обновление природы. Этот праздник отмечается уже тысячи лет, а его обычаи включают зажигание костров, прыжки через огонь для очищения и приготовление специальных блюд, символизирующих победу света и добра над тьмой. Корни Новруза уходят в древние цивилизации Манны и Мидии, где он был сельскохозяйственным праздником, знаменующим обновление жизни. Со временем праздник стал неотъемлемой частью зороастризма и его учений о цикличности жизни. Хотя Новруз был также подвержен влиянию других религиозных практик, таких как поклонение огню, он остался привязанным к зороастрийским традициям. В современном Азербайджане Новруз отмечается такими ритуалами, как уборка домов, визиты к родным и зажигание костров. Эти обычаи символизируют очищение, победу добра над злом и возрождение природы. Несмотря на течение времени, Новруз продолжает оставаться культурным символом Азербайджана, свидетельствуя о древних корнях и продолжительном влиянии зороастризма. Этот праздник остается важной традицией, отражающей гармонию между богатым историческим наследием Азербайджана и его современным обликом.

***Ключевые слова:*** *Весна, Новруз, Манна, Скифы, Хуны, Огуз, Зороастр, Солнце, Луна.*

**Aktuallıq.** Azərbaycan dünyanın qədim ölkələrindən biridir. Bu ölkə dünyada təkcə öz maddi resusları (neft, qaz, qiymətli metallar), milli mədəniyyəti ilə deyil, eyni zamanda dövlətçilik tarixində mənsub olduğu fərqli dinlərin də ilk yarandığı bir ölkədir. Qədim Manna, Midiya,

Atropatena, Albaniyada Zərdüştlük, Tanrıçılıq, Xristiyanlıq və İslam kimi dinlərin də yarandığı ilk mərkəz olmuşdur.

**Annotasiya.** Astrologiya və astranomiya ilkin bir elm sahəsi kimi Azərbaycanda özünə geniş yer tutmuşdur. Belə ehtimal olunur ki, göy cisimlərinin öyrənilməsinin əsasını qədim türk tayfaları qoymuşlar. Geniş bir ərazini özünə vətən sayan qədim Manna tayfaları, Türk sakaları, Hunlar, Oğuzlar yaşadıqları çadırların yuxarı hissəsindən göy cisimlərini müşahidə edərək ilkin biliklərə yiyələnmişlər.

**Metodlar.** Məqalədə tarixi-müqayisəli, təsviri, qarşılaşdırma metodlarından istifadə edilmişdir.

**Giriş.** Bu günə qədər avqust ayının 5-7-də, Azərbaycanda yaşayan tərəkəmə tayfaları öz qoyun-quzularını, yüksək dağ çəmənlərindən tədricən aşağı endirərək hərəkətə başlayırlar və bu zamana "quyruq doğdu" deyirlər. Xalq arasında ona "quyruq dondu" da deyilir. Əslində bu onların göydə müşahidə etdikləri quyruqlu ulduzun peyda olması ilə bağlıdır ki, onun səmada görünnməsi, yağışların başlaması mənasını, vaxtını daşıyırmış. Bütün bu müşahidələri çox guman ki, qədim Manna və Midiyada mövcud olmuş, göy cismlərinin hərəkətini müşahidə edən münəccimlər yaratmışdır ki, onlardan biri də dünyada məhşur olan Zərdüştün adı ilə bağlıdır. Zərdüştün dövründə Günəşə və digər 5 səyyarəyə sitayiş edərək, hər ulduza bir ibadətgah tikilmiş və ulduzların antropomorf heykəlini düzəldərək həmin ibadətgahda mərasimlər keçirmişlər. Strabon Azərbaycanda belə ibadətgahların çox olduğunu və həmin ibadətgahların xüsusi hörmətə malik olduğunu qeyd edir. Orta əsr müəlliflərindən olan Mövsüm Fani özündən öncə yazılmış "Əxtəristan" adlı mənbəyə istinad edərək yazır ki, "Mannada yaşayan qədim Subilər göydə olan ulduzları və səmanı əcdadlarının müqəddəs ruhu hesab edib, onlara sitayiş ediblər. Yeddi səyyarənin hər birinin evlərdə saxlanılan talismanı varimış. Həqiqətdə də qədim Mannada yaşayan lullubi, kassit, subi, kuti, maq və digər tayfalar yeddi ulduza sitayiş edib, onların hər biri üçün məbəd tikmişlər. Həmin bu məbədlərin hər birinin öz rəngi və ibadət etmə günləri var imiş. Yalnız həftənin müəyyən günləri ibadətgaha getmək olarmış. Məsələn: Ay məbədinin rəngi yaşıl, günü isə bazar ertəsi, Marsın rəngi qırmızı, günü II gün, Merkurinin rəngi firuzəyi, günü III gün, Yupiterin rəngi boz, günü IV gün, Zöhrənin, yəni Veneranın rəngi ağ, günü V gün, Saturnun rəngi qara, günü VI gün, Günəşin rəngi sarı, günü isə bazar günü imiş. Azərbaycan mifologiyasında keçinin günəşlə əlaqəsi məhs Astronomik təqvimlə bağlıdır. Belə ki, Günəş hər il mart ayının 20-21-də Keçi bürcünə daxil olur. O zaman azərbaycanlıların Zərdüştlüklə bağlı ən qədim bayramlarından biri olan Novruz bayramı başlayır [3, 145-159].

Kim idi Zərdüşt? Zərdüşt həqiqətən tarixi bir şəxs olub, tədqiqatçıların fikrinə görə Allah tərəfindən vəh almış ilk Peyğəmbərdən biri imiş. O, ən qədim dinlərdən olan Zərdüştlüyün yaradıcısıdır. Bu din ilk olaraq Zərdüşt tərəfindən yaradılmlşdır. Bu din qədim Mannada e.ə. I minilliyin 6-7-ci illərində qəbul edilmiş, sonralar Hindistandan gələn Parsuya adlı Mannanın yaxınlığında olan Əhəməni imperiyasının Parfiya və Sasanilər tərəfindən də qəbul edilmiş bir dindir. "Zərdüştlər ulduzlara sitayiş etmişlər" [6, 99; 11]; "Onlar cadugərliklə məşğul deyildilər, maqların əvvəlincisi ulduzlara sitayiş edən Zərdüşt olmuşdur" [7, 65; 8; 9]. Uzun illər bütün həyatını zərdüştçülüyün araşdırılmasına həsr edən ingilis alimi prof. Mery Boysun fikrinə görə [1] Zərdüştluk ən qədim dinlərdən biri olub insanlara öz təsirini göstərmişdir. Zərdüştün əsas fikri insanların sağlam olub, maddi nemətlərdən kifayət qədər qidalana bilməsi, insanların bir-birinə hörmətlə yanaşması, bunun üçün də heyvandarlıq və əkinçiliyi inkişaf etdirmək olmuşdur. Onun dahiyanə fikirləri bundan ibarət idi:

"Haqq fikir, haqq söz və haqq əməl"

Zərdüştün dövründə yaranan "Avesta" nın ilk hissəsi qatlarda özünə yer tapmışdır. Qatlarda yazılır ki, Zərdüşt bu dinin əsas yaradıcısı, onun müqəddəs icraçısı və peyğəmbəridir. Kiçik "Avesta"da bu dinə sitayiş edənlərə ümümi olaraq "ataurva" deyilmişdir və burada o, özünü bu mətnlərin yaradıcısı elan edir.

Qatlardan öyrənmək olur ki, Zərdüşt, hələ 15 yaşından başlayaraq artıq püxtələşmiş və elə o zamandan da bu dinə sitayiş etmişdir. Zərdüştün əsas məqsədi ondan ibarət idi ki, bütün insanlıq yer üzündə olan pisliyə, haqsızlığa qarşı mübarizə aparıb sülh şəraitində gözəl yaşasın. Onun əsas ideyasında belə yazılmışdır: "Haqla haqsızlığı ayırmaq və haqsızlığa qarşı mübarizə aparıb onu məhv etmək". Zərdüşt həmişə söyləmişdir ki, bir gün başlamış insanın həyatı o vaxta qədər davam edəcək ki, qarşılarına qoyduqları məqsədi Allahla bərabər yerinə yetirsinlər. Allahının himayəsi altında rahat, sülh şəraitində yaşasınlar [1, 37].

Haqq Allahı Ahora Mazda və alti ameşa spenta (altı planetə) qurbanlar kəsib sonra müqəddəs mistik "ağ haoma" hazırlamaq, bütün canlılara onu içirtmək vacibdir. Bu dini qəbul etmişlər öz fikirlərində, işlərini vicdanla görərək xəstəliksiz və sevgi ilə Allahın və yer kürəsinin üzərində yaşayacaqlar [1, 39].

Zərdüştün əsas fikri insanlığın özündən asılı olaraq haqq fikir, haqq söz, haqq əməllə yaşamalarını tövsiyyə etməkdir. Həqiqətən Zərdüştün təlimi çox nəcib olub, bu dini qəbul edən insanlardan belə yaşamağı tələb edirdi.

Məlum olduğu kimi, bu gün dünyanın bir çox ölkələrində, Özbəkistan, İran, Tatarıstan, Hindistan və s. ölkələrdə Novruz bayramı keçirilir. Təbii ki, bu bayramın ilkin vətəninin hara olduğu məsələsi hər zaman sual doğurmuşdur. Bu sualın cavabını xoşbəxtlikdən Londonda keçirilən simpoziumlardan birində (Asiya və Afrika Universitetində tanış olduğum prof. Mery Boys öz kitabında tam aydın cavab verir). Bu məqalədə Zərdüştlüyün hansı xalqa mənsub olduğunu tamamilə düzgün, dəqiq bir fikrini də yazdığı kitablarının birində o, yazır bu günə kimi yaşayıb və bir çox alimlərin tədqiqatları isbat edir: "E.ə. 550-ci ilə qədər Mada Azərbaycan mağlarının başda durduğu bir dövlət, böyük bir imperiya olmuşdur" [6, 249]; "Zərdüştçülüyün ideyaları və bütün icra qanunlarının əsasları "Avesta"nın ənənələrini şifahi olaraq əzbər bilən maqlar tərəfindən şimali Midyada, yəni Atropatenada və Azərbaycanda, başqa sözlə, şimali-şərqi İranda, yəni İran Azərbaycanında yaranmışdır" [1, 115]; "Mağlar dünyanın və Azərbaycanın ən qədim tayfalarından biri olmuşdur. Mağların vətəni indi bir hissəsi Şimalda, bir hissəsi Cənubi Azərbaycan ərazisində olan Muğan olmuşdur" [6, 99; 12].



Yeri gəlmişkən qısaca da olsa, Zərdüştçülər tərəfindən ibadət qayda-qanunlarının necə yerinə yetirilməsi haqqında da danışmaq lazımdır. Zərdüştçülüyün rituallarını yerinə yetirməzdən əvvəl, maqlar mütləq öz əllərini, ayaqlarını, üzlərini tozlardan yumalıdılar, sonra müqəddəs bel bağlarını iki əlləri ilə əvvəl öz önündə bağlayıb müqəddəs rituallarına başlamalıdırlar. Həmin bu ritualları yerinə yetirmək 15 yaşdan başlayır, müqəddəs bel bağlarını əvvəlcə geyindikləri ağ köynəyin üstündən bağlayıb rituala başlamalı imişlər. Aparılan tədqiqat işində bizə Zərdüşt peyğəmbərdən qalan Yeni il, Novruz bayramı, Bahar bayramI haqqında maraqlı faktları ortaya çıxarmaq olmuşdur. Lakin bizə eyni zamanda o da maraqlıdır ki, Zərdüşt dövründə daha hansı bayramlar keçirilmiş. Belə ki, Zərdüşt yaşadığı dövrdə bir sıra bayramlar olmuşdur. Onlardan biri elə, martın əvvəllərinə təsadüf edən (Fərvərdin ayı) "qadınlar bayramı" imiş, həmin bayramda əl-Biruninin dediyinə görə. öz ərinə sadiq olub, öz uşaqlarını sevən qadınlara, ərləri "bədmüşk" ağacının budaqlarını qıraraq hədiyyə edərmişlər.

İkinci bayram Yeni il, Novruz bayramı, üçüncü "taxıl yığılma" bayramı, dördüncü isə "mal-qaranın dağdan enmə" bayramı olub. Novruz bayramının keçirilməsi qədim Mannada mövcud olmuş və bunun üçün müxtəlif ayinlər keçirilmişdir. Bu bayram xalq arasında geniş yayılmışdır. Azərbaycanın, eləcə də dünyanın ən qədim yaşayış məskənlərindən hesab olunan Qobustan qayaları üzərindəki rəsmlər də bunu sübut edir [4, 194]. Məlum olduğu kimi, bizim qış ayları haqqında azərbaycanlıların xalq arasında yadda qalan şeir ilə səslənən qanunları varmış. İlin fəsilləri, yəni 4 fəsil xalq arasında belə səciyyələnir:

Üçü bizə yağıdır,
Üçü cənnət bağıdır,
Üçü yığıb gətirər,
Üçü vurub dağıdar.

Şeirin açılışı ondan ibarətdir ki, yay bolluqdur, firavanlıqdır, var-dövlət, yığıb gətirən fəsildir, yaz öz gəlişi ilə təbiəti bəzədiyi üçün cənnət bağıdır, payız isə olan-olmazı tükədən, qış isə yağı, yəni düşmən hesab edilir. Qaydaya görə bu fəsillər özü də çillələrə bölünür. Çillə sözü, əslində "sehr" sözündən olub, 40 rəqəmini bildirir. Və xalq arasında ağırlıq, çətinlik mənasında başa düşülür. Xalq arasında üç çillə mövcuddur. Birinci çillə qışın başlanğıc günündən, yəni dekabrın 22-dən fevralın əvvəlinə qədər olan vaxtdır. Böyük çillənin yarısı qədər olan və el arasında qışın "oğlan çağı" adlanan kiçik çillə fevralın 2-dən 22-ə qədər davam edir. Boz ay adlanan fevralın 2-dən martın 22-nə olan müddət isə 7 gündən ibarətdir.

Dördüncü kiçik olub "Çillə beçə" adlanır. Hər üç çillədə insanlar qışdan qorxmadıqlarını ona qarşı mübarizəyə hazır olduqlarlını bildirmək üçün müxtəlif ayinlər keçirərmişlər.

Böyük çillənin iki ayı isə əsasən müqəddəs səməni içkisini bişirmək üçün hazırlıq dövrü ilə bağlıdır.







Əcdadlarımız baharı çağırmaq onun süni simvolunu yaratmışlar. Səməni cücərtmək təşəbbüsü də bundan irəli gəlib. Deməli, səməni gö yərtmək baharın müjdəçisidir. Səməni göyərtməyin tarixi qədim olub, bizə ulu babalarımızdan yadigar qalmışdır. Əcdadlarımızın təbiəti dərk etmələrinin ilkin çağlarından irəli gəlir.

Çillənin başlanğıcından cücərti təqribən 1sm hündürlüyündə olanda göyərdilmiş səmənini taxta çanaq, yaxud tabaqda döyüb suyunu sıxırlar, sonra 7 evdən alınmış buğda unundan və səhər tezdən çaydan gətirilən təmiz su ilə, böyük qazanlara tökərək qarışdırır, cücərdilib, döyülüb sıxılmış buğdaların suyunu ora tökürlər və onu böyük taxta qaşıqlarla qarışdırırlar. Elə əsl mərasim də bu zaman başlanır. Qadınlar dəstəsi səməni qazanının ətrafına dolanır, səs-səsə verib oxuyurlar:

Səməni saxla məni,
İldə göyərdərəm səni,
Səməniyə saldım badam,
Qoymurlar bir barmaq dadam,
Səməni, bezana gəlmişəm,
Uzana-uzana gəlmişəm.

Təəssüflər olsun ki, yuxarıda adını çəkdiyimiz müqəddəs səməni içkisi "Avesta"da müqəddəs "Haoma" və ya "Homa" kimi qeyd olunan səməni içkisi müasir dövrümüzdə tamamilə unudulub və yaddan çıxıb. Doğrudur adını "halva" qoyub və ona bənzər şirin halva adı ilə bişirilən bir şirniyyat var, guya ki, bu elə həmin səməni içkisidir.

Lakin bunlarlın bir-biri ilə əlaqəsi olsa da, əsl səməni içkisinin hazırlanma üsulu tamamilə unudulub və bu gün Azərbaycan xalqı səməni cücərdərək onu dekorativ simvol kimi bayram süfrəsinə qoyur, bayram bitəndən sonra həmin səmənini götürüb zibil qutusuna atır və təbii ki, bununla özünü günaha batırır.

Məhz buna görə də məqalənin müəllifi bu müqəddəs içkini hazırlanma qaydalarını bir daha yada salmaq üçün onların xalqa çatdırılması üçün onun üsullarını təqdim edir. Novruz bayramının tərkib hissələrindən biri olan bir məsələni də bu məqalədə yada salmağı özümə borc bildim.

Məlum olduğu kimi bizim eradan əvvəl IX əsrdə Hindistandan gələn və sonralar qonşuluqda Əhəməni dövləti quran, böyük bir imperiya qədim Manna dövlətindəki bu bayramın qanun və qaydalarını Hindistandan gətirilən atəşpərəstlik kimi qələmə verdilər. Onları bir-birinə qarışdıraraq onun adını Zərdüştlük dini adı ilə yaymağa başlasalar da Manna, Midya, Atropateniyada bu bayramın əsl mahiyyəti unudulmadı. Halbuki Azərbaycan mühitində atəşpərəstlik dininə bu günə qədər sitayiş edən insanlar olsa da, demək olar ki, azlıq təşkil etmişlər. Bu gün belə Suraxanıda yerləşən Atəşgahdan yalnız Hindistandan gələn Atəşpərəslər istifadə ediblər. Azərbaycanın çox zaman mediya işçilərinin təşkil etdikləri Novruz bayramında, Atəşgahda yanan odun qarşısında Azərbaycan rəqslərini təşkil edirlər, bununla da Atəşpərəstlərin müqəddəs odunu təhqir etmiş olurlar. Bunu sübut etmək üçün bir məsələni qeyd etmək lazımdır.

“Azərbaycan xalqı çox qədim milli bayramı olan Novruzu tarixin ağır sınaqlarından keçirərək milli mənəvi dəyəri kimi bu günədək qoruyub saxlamışdır. ... tariximizin ağır, çətin dövrləri olub. İnsanlar ağır günlər, çətin illər yaşayıblar. Ancaq buna baxmayaraq Novruz bayramını heç kəs, heç vaxt unutmayıb, əksinə Novruz bayramı insanları, xalqımızı həmişə sevindirib, ən çətin anlarda, ən ağır günlərdə onlarda xoş, nikbin əhval-ruhiyyə yaradıb...” [10, 36].

Bildiyimiz kimi, Novruz bayramı ərəfəsində insanlar ev-eşiyini təmizləyər, evinə azuqə alar, qohum-əqrəbasına pay aparar, çalıb oynayar və dörd çərşənbəni mütləq həyətdə od qalayaraq odun üstündən atlanaraq qeyd edərlər. Və bu qayda bu günə qədər davam etməkdədir. Həmin tonqalın əsas mənası təmizlənmə magiasıdır, yəni insan tonqalın üstündən atlanar, öz xəstəliyini, ağırlığını, uğurluğunu odun üstündən atlanaraq atır. Xalq yaradıcılıqında bu mərasim aşağıdakı kimi aydınlaşdırılır:

Ağırlığım-uğurluğum odlara,
Yazda mənlə hoppanmayan yadlara.
Ağırlığım od olsun,
Odda yanan yad olsun.
Alovdan atlanmaq gərək,
Cəfaya qatlanmaq gərək.
Oddan aman olmaz;
Yaddan qanan olmaz.
Ağırlığım-uğurluğum odlara.
Yazda mənlə hoppanmayan yadlara.
Yansın alov saçılsın, mənim baxtım açılsın.

Təbii ki, tonqalın yandırılması çərşənbə adlanan mərasimlə əlaqədardır. Əsrlər boyu Novruz bayramında dörd əsas od qalamaq mərasimi var ki, bunlar da “çərşənbələr” adı ilə məhşurdur. Ümumiyyətlə, çərşənbə əslən farsca “çahar şənbə” sözündən götürülüb, dörd şənbə deməkdir. Azərbaycanlılar onu bir qayda olaraq “çərşənbə axşamı” adlandırırlar. Mütləq bir qayda olaraq, müxtəlif çeşidli plov bişirilir, və od mərasimi bitdikdən sonra süfrə açılır. Qədim dövrlərdən bu günə qədər, çərşənbələrin adları aşağıdakı kimi yadda qalıb:

1. Birinci çərşənbə**:** ***“yalançı çərşənbə”, “müjdəçi çərşənbə”*** və ya ***“əzəl çərşənbə”*** də adlanır.
2. İkinci çərşənbə**:** ***“kül çərşənbə”*** adlanır və bir qayda olaraq tonqal yanib bitdikdən sonra onun külü götürülərək budaqları yenicə tumurcuqlanan ağacların dibinə tökülür ki, onların tez yetişməsinə kömək olsun.
3. Üçüncü çərşənbə: ***“gül çərşənbədir”*** ki, bu da artıq novruz, nərgiz, bənövşə çiçəklərinin çıxması ilə əlaqədardır.
4. Dördüncü çərşənbə: ***“ilaxır çərşənbə”*** adlanır. Həmİn gün bahar fəslinin gəlişi, yəni Novruz bayramı qeyd olunur. Qapı pusulur, uşaqlar torba, papağ və s. atırlar.

Unutmayaq ki, dahi Nizami Gəncəvi “İsgəndarnamə” poemasında Novruz bayramı günü İskəndəri qonaq edən Nüşabənin tonqal qalatdığını, süfrəyə hər çeşidli nemətlər qoyduğunu qeyd edir.

Lakin müasir dövrümüzdə bir çox jurnalistlərin və ya Novruz bayramının sinvollarını dərindən bilməyən şəxslərin ucbatından bu çərşənbələrin adı digər planetlərdən fərqli olaraq yer planetinə məxsus dörd ünsürün adı ilə adlandırılması ilə nəticələnmişdir. İnsanın yaşaması üçün lazım olan 4 ünsür cəhətin çərşənbələrə yeni ad olaraq verilməsi bizi məsələnin əsl mahiyyətindən ayırır. Doğrudur, "su", "od", "torpaq", "yel" çərşənbələri yalnız bizim yaşadığımız Yer planetinə aiddir və Yer kürəsinin ən qiymətli ünsürləridir. "Su", "od", "torpaq", "yel" ünsürlərinin bildiyimiz kimi digər planetlərdə biri, ya da ikisi olur. Bu da canlıların həmin planetdə yaşaması üçün kifayət deyildir. Bu ünsürlərin olması insan cəmiyyətinin yaşamasına səbəb olsa da, lakin adlandırılma düzgün deyil.

## ƏDƏBİYYAT


1. Мери Бойс. Зороастрийцы, Верования и обычаи. Москва, «Наука», 1988.
2. Abdulla Bəhlul Azərbaycan mərasim folkloru. Bakı, Qismət, 2005.
3. Əliyeva K. Zərdüştçülük və Azərbaycanda Novruz bayramının tarixi kökləri. Azərbaycan Dekorativ-tətbiqi sənətinin müxtəlif sahələrinə aid seçilmiş məqalələr toplusu. I hissə. Bakı, 2019.
4. İsmayılova M. Türk dilləri dialektlərində inteqrasiya və diferensiasiya məsələləri. Ankara, Iksad, 2022.
5. Kazımov Q. Azərbaycan dilinin tarixi (Ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı, Təhsil, 2003.
6. İsmayılova M. Yazı. Yazının yaranma tarixi. Yazı mədəniyyəti. Yazının əhəmiyyəti. Azərbaycan dili və nitq mədəniyyəti. Dərslik. I cild. Bakı, ADPU, 2016.
7. Косидовский З. Библийские сказания. Москва, Пол. Литература, 1975.
8. Лаэртский Д. О жизни учениях и изречениях философов. Москва, Мысль, 1979.
9. Булли Л. Ур Халдеев. Москва, Восточная литература, 1961.
10. İsmayılova M. Heydər Əliyev və türk mənəvi dəyərləri. Mahmud Kaşğarlı. Beynəlxalq elmi jurnal. Cild I, №2. Bakı, ADPU, 2023.
11. Əlibəyzadə E. "Avesta" Azərbaycan xalqının mənəvi mədəniyyət tarixidir. Bakı, Yurd, 2005.
12. Элизе Реклю Человек и земля. Т I. изд. Брокгауз Ефрон, СПБ. 1906.


**Daxil oldu: 28.02.2025**
**Qəbul edildi: 16.03.2025**